**Azıx Mağarası**
**Arif Mustafayev**

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ 4.2 (Yay 1996)
© 2003. Azerbaijan İnternational

"Azıx insanı" - yer kürəsinin ən qədim sakinlərindən biri vaxtilə indi Azərbaycan kimi tanınan ərazidə məskunlaşmışdı. Bu Azərbaycanın ən gizli saxladığı sirridir. Azərbaycandan, yaxud da keçmiş Sovertlər Birliyindən kənarda bu sirri bilən çox azdır.

1968-ci ildə Azərbaycan paleontoloqu Məmmədəli Hüseynov (1922-1994) sonradan Neandertal tipə məxsus olduğu sübut edilən qədim insanın alt çənə sümüyünü aşkar etdi. Bu tapıntı aşkar edildiyi zamandan bəri Qərb mütəxəssisləri tərəfindən müstəqil surətdə tədqiq edilmiş və onun 350,000-400,000 illik bir tarixinin olduğu təsdiq olunmuşdur. Azı dişlərindən biri bütöv qalmış, o biri isə qismən sınmış bu çənə sümüyünün 18 yaşlı qadına mənsub olduğu fərz edilir. (O zaman həyat orta hesabla 20-22 yaşa qədər davam etdiyinə görə 18 yaş artıq qocalıq hesab olunurdu). Çənə sümüyünün tapıldığı Azıx mağarasında sonradan Paleolit və Mezolit dövrlərinə, daha doğrusu, 1-1,5 milyon il əvvəlki dövrə aid olan daşdan düzəldilmiş əmək alətləri tapılmışdır.

**Keçmiş SSRİ-də Ən Qədim Tapıntı**
Fransız paleontoloqu Lümlenin fikrinə görə Azıx mağarasından tapılmış çənə sümüyü arxeologiya tarixində qədimliyinə görə dördüncü yerdədir. Ən qədim tapıntı isə Riçard Liki (həmçinin onun həyat yoldaşı və oğlu) tərəfindən Tanzaniyanın Olduvay düşərgəsində tapılmışdır; ikinci Keniyada, üçüncü isə Fransada aşkar edilmişdir. Keçmiş Sovetlər birliyində isə Məmmədəli Hüseynovun tapıntısı ən qədim tapıntı hesab olunur.

M. Hüseynov Azərbaycanın cənub-qərbindəki Kiçik Qafqaz sıra dağlarının cənub-şərq yamacında yerləşən Azıx çayının yaxınlığındakı Azıx mağarasında məskunlaşan bu insanları "Azıxantrop" adlandırmışdır. Mağara İran sərhəddinə yaxın olan Füzuli rayonunun ərazisində yerləşir. Hal-hazırda bu rayon Ermənistanın hərbi işğalı altındadır. Burada yaşayan bütün Azərbaycanlılar həmin ərazini 1993-cü ildən sonra tərk etmişlər.

M. Hüseynovun həyatında ən çox təəsüfləndiyi şeylərdən biri onun 80-ci illərin sonundan bəri müharibə və hərbi təhlükə üzündən Azıx mağarasına gedib orada öz araşdırmalarını davam edə bilməməsi idi. Ömrünün son günlərinədək o, Füzuli rayonunun erməni işğalından azad ediləcəyinə ümidini itirməmişdi.

M. Hüseynov 1994-cü ildə 72 yaşında vəfat etdi. Lakin onun arzusu hələ də həyata keçməmişdir. Azıx haqqında ölkə xaricində kifayət qədər məlumatın olmamasının səbəblərindən biri də M. Hüseynova xarici səfərlərə getmək üçün demək olar ki, heç bir imkanın yaradılmaması idi. O, Kommunist Partiyasının üzvü deyildi; bundan başqa II Dünya Müharibəsi dövründə almanlar tərəfindən əsir alınmışdı. Bu bir inanılmaz həqiqətdir ki, vaxtilə alman əsirliyində olanlara keçmiş Sovetlər Birliyində şübhə ilə yanaşılırdı. Onların çoxu əslində Sibirə sürgünə göndərilirdi. Xarici alimlər M. Hüseynovla görüşüb əməkdaşlığ etmək üçün demək olar ki, heç bir imkan tapmırdılar. M. Hüseynov arxeologiya sahəsindəki bütün informasiyanı yalnız Rusiyada çıxan qəzet və jurnallardan ala bilirdi. Lakin buna baxmayaraq, o, Fransa alimi Lümle ilə sıx əlaqələr yarada bilmişdi.

M. Hüseynov Azərbaycanda Paleolitə aid tapıntılar aşkar etmiş ilk arxeoloqdur. Ondan əvvəl isə 2 milyon il əvvəl Zaqafqaziya ərazisində Paleolit və yaxud Daş Dövrünə aid insanın yaşaması heç kəsin təsəvvürünə belə gəlmirdi. Alimin arxeologiya sahəsindəki işi əvvəldən uğurlu olmuşdu. 1953-cü ildə universiteti yenicə bitirmiş M. Hüseynov Azərbaycanın şimal-qərbində Gürcüstan və Ermənistanla sərhəd olan Qazax rayonuna ekspedisiya təşkil etdi. Burada o, Aneolitdən (5,000-4,000) Bürünc dövrünə qədər böyük bir dövrü əhatə edən çoxlu tapıntılar aşkar etdi.

**Mağara Haqqında Əfsanələr**

Lakin M. Hüseynovun "şah əsəri" Azıx mağarası oldu. O bu mağaranı 1960-cı ildə kəşf etdi. Qarabağ ərazisində yaşayan əhali bu mağaranı tanıyırdı. Buranın əjdahaların yaşadığı təhlükəli bir yer olması haqda çoxlu rəvayətlər söylənilirdi - güya ki, mağaraya girənlər oradan sağ qayıtmırdılar və güya hətta bir dəfə oraya girən bir sürü qoyunu əjdahalar diri-diri yemişlər.

Azıx Qafqaz ərazisində aşkar edilmiş əhəng daşı mağaraları içərisində ən böyüyüdür və onun labirint tipli dəhlizləri 600 metrə qədər uzanır. Sahəsi 800 kvadrat kilometr olan mağarada səkkiz iri dəhliz vardır. Bu dəhlizlərdən bəzilərinin kümbəz şəkilli tavanlarının hündürlüyü 20-25 metrdir. Mağara boyu stalaktit və stalaqmit sütunlarına rast gəlmək olar.

Mağarada orta Paleolitin müxtəlif dövrlərinə aid 14 metr qalınlığı olan 10 mədəni layın (bu laylar əsasən arxeoloji baxımdan müəyyən məna kəsb edən məişət tullantılarından ibarət olur) aşkar edilməsi M. Hüseynovu belə bir nəticəyə gətirmişdi ki, mağarada həyat onlarla min il müddətində davam etmişdir.

M. Hüseynovun ən nadir tapıntılarından biri də primitiv daş alətlər idi. Arxeoloji baxımdan bu alətlər çay daşı mədəniyyətini təmsil edir. Mağara Quruçay çayının hövzəsində yerləşdiyinə görə M. Hüseynov bu dövrü Quruçay mədəniyyəti adlandırmışdır. Bu mədəniyyətin 1,5 mln. illik tarixi olan yeganə ekvivalenti

Tanzaniyanın Olduvay düşərgəsində tapılmışdır. Alim Quruçay mədəniyyətinin 1,5 mln.-730,000 illik tarixə malik olduğunu təsdiq etmişdir.

M.Hüseynov Azıx mağarası sakinlərinin mağaraya köçməzdən əvvəl daş alətlər düzəltmək qabiliyyətinə malik olduqlarını fərz edirdi. Başqa mağaralarda olduğu kimi Azıx mağarasında da 45 müxtəlif növə aid heyvan sümükləri tapılmışdır. Bu növlərin bəzilərinin artıq kökü kəsilmişdir. Odun meydana gəlməsindən sonra bu sümüklərin çoxu, görünür, yandırılmışdır.

**Ayılara Etiqad**

Tapıntılar göstərir ki, mağara ayıları və müxtəlif növlərə aid marallar mağara sakinlərinin ən çox ovladığları heyvanlar olmuşdur. Mağara ayısının Azıx sakinləri üçün müqəddəs hesab olunduğu güman edilir. Belə ki, Aşel təbəqəsində yerləşən ocaq yerinə yaxın bir sığınacaqda bir-birinin yanına düzülmüş ayı kəllələri aşkar edilmişdir. Kəllələrin hamısı eyni şəkildə kəsilmişdi. Onların heç birində alt və üst çənə sümüklərinin olmadığı, yaxud müxtəlif şəkildə zədələndiyi aşkar edilmişdir. Bəzən yarıya bölünmüş çənə sümükləri xaç əmələ gətirir, bəzən isə xaç qrafik şəkildə təkrar olunur. Kəllələrin birində isə şəkilli çapıq aşkar edilmişdir. Belə bir fenomen həmin dövrə aid başqa tapıntılarda rast gəlinməmişdir.

**Bəşəriyyət Tarixində İlk Ocaq İzləri**

Dördüncü təbəqəyə aid mühüm tapıntılardan biri də bəşər tarixində mühüm rola malik olan odla bağlıdır. Ov fəaliyyəti ilə əlaqədar insanlar yerdə çalalar qazmaqla süni ocaqlar yaradır və onları yarımdairəvi daş maneələrlə əhatə edirdilər. Ocaq yerinin aşkar edildiyi çalalar o qədər də dərin deyil və onlardan təkcə qida hazırlamaq üçün yox, həm də odu qoruyub saxlamaq üçün istifadə edildiyi güman edilir. Mağarada yaşayan qədim insanların həyatında onları başqa canlılardan ayıran mühüm dəyişikliklərin baş verdiyini sübut edən bu fakt M. Hüseynovun Azıxla əlaqədar son tapıntısı idi.

1972-1973-cü illərdə müxtəlif stratiqrafik təbəqələrdə beş ocaq yeri aşkar edilmişdir. Ocaq yerlərindən biri 30 sm. qalınlığı olan aypara şəkilli divarla əhatə olunmuşdur. Bu divar ətrafdakı yaşayış sahəsini qığılcımdan qorumaq üçün tikilmişdi. Bunlar bəşəriyyət tarixində ilk bina və ilk ocaq hesab olunur. Binanın eramızdan əvvəl 700,000-500,000-ci ilə aid olduğu güman edilir. Maraqlı faktlardan biri də ocaq yerlərinin eyni yerdə müxtəlif dövrlərdə mövcud olmasıdır. Bu, mağara sakinləri arasında ənənələrin uzun müddət davam etməsini sübut edən mühüm bir faktdır.

**Dördüncü Təbəqə – Həyat İzi Yoxdur**

Mağaranın Aşel dövrünə aid dördüncü qatında olduqca maraqlı bir fenomen aşkar edilmişdir. Bu təbəqədə insan yaşayışından xəbər verən heç bir tapıntı aşkar edilməmişdir. Çox güman ki, mağaranın sakinləri oranı bir müddət müəyyən səbəblər üzündən tərk etmiş və sonralar yenidən oraya qayıtmışlar.

Bunun səbəbi, əlbəttə ki, sual olaraq qalır. Belə bir fenomen başqa mağaralarda da aşkar edilmişdir. Bəlkə də mağaranın üst qatları sökülüb dağılmış və insanlar oraya daxil olmağı təhlükəli hesab etmişlər. Və yaxud bəlkə də bir qəza baş vermişdi. Bəzi arxeoloqlar belə hesab edirlər ki, Buzlaşma dövründən sonra iqlim mülayimləşmiş və insanlar mağaranın içərisində qalmağa ehtiyac hiss etmədiklərindən açıq düşərgələrdə məskən salmışlar.

M. Hüseynov gördüyü işin müqabilində heç bir mükafatla təltif edilmədi. O öz işini sevirdi və buna görə də, əslində, heç bir mükafat gözləmirdi. Onun tələbələri onu sevir və ona dərin hörmət bəsləyirdilər. Məhz onun araşdırmaları sayəsində Azərbaycanın sivilizasiyanın ən qədim mərkəzlərindən biri olması heç bir şübhə olmadan təsdiq edilə bilər.

Arif Mustafayev Bakı Dövlət Universitetində Arxeologiya sahəsində professordur. O, Məhəmmədəli Hüseynovla Elmlər Akademiyasında 25 il işləmişdir

---

Tərcümə: Jalə Qəribova
Redaktə etdi və veb üçün hazırladı: Aynurə Hüseynova